# FƏRQLİ MƏDƏNİYYƏTLƏRDƏN OLAN İNSANLARLA DİALOQQURMADA SOSİAL-EMOSİONAL BACARIQLARIN ROLU

**Ləman Qurbanova**
*magistrant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0009-0008-2462-9299*

**Xülasə**

Təhsildə sosial-emosional bacarıqlar (social-emotional learning) öyrənənin öz emosiyalarını, hədəflərini idarə etmək, başqalarını anlamaq və onlarla empatiya qurmaq, müsbət münasibətlər qurmaq və məsuliyyətli qərarlar qəbul etmək qabiliyyətlərini ehtiva edir. Xüsusilə xarici dillərin tədrisində bu bacarıqlar təkcə dilin öyrənilməsi, qrammatika və lüğəti mənimsəməkdən ibarət deyil, onlar eyni zamanda əcnəbi, yeni mədəniyyətlərlə tanışlıq, bu mədəniyyətlərdən olan insanlarla ünsiyyətqurma taktikası, ünsiyyət zamanı yaranan həyəcanın qarşısını almaq, stressin öhdəsindən gəlmək bacarıqlarıdır. Bu mənada sosial-emosional bacarıqlar dilöyrənmə prosesinin ayrılmaz hissəsidir.

**Açar sözlər:** bacarıq, sosial-emosional, öyrənmə, ünsiyyət, fərqli mədəniyyət.

## THE ROLE OF SOCIAL-EMOTIONAL SKILLS IN ENGAGING IN DIALOGUE WITH PEOPLE FROM DIFFERENT CULTURES

**Leman Gurbanova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Social-emotional learning (SEL) in education encompasses the learner's ability to manage their emotions and goals, understand and empathize with others, establish positive relationships, and make responsible decisions. Particularly in foreign language teaching, these skills go beyond merely acquiring grammar and vocabulary; they also involve familiarizing oneself with new cultures, developing tactics for communicating with people from those cultures, overcoming communication anxiety, and managing stress. In this sense, social-emotional skills are an integral part of the language learning process.

**Key words:** skills, social-emotional, learning, communication, different culture.

## РОЛЬ СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНЫХ НАВЫКОВ В ДИАЛОГЕ С ЛЮДЬМИ ИЗ РАЗНЫХ КУЛЬТУР

**Ляман Курбанова**
*Азербаджанский государственный педагогический университет*

**Резюме**

Социально-эмоциональные навыки в образовании включают в себя способность учащегося управлять своими эмоциями и целями, понимать других и сопереживать им, строить позитивные отношения и принимать ответственные решения. Особенно в преподавании иностранных языков эти навыки состоят не только из изучения языка, освоения грамматики и лексики, но и из знакомства с зарубежными, новыми культурами, тактики вступления в межкультурное общение, умения предотвращать тревогу во время общения и способности справляться со стрессом. В этом смысле социально-эмоциональные навыки являются неотъемлемой частью процесса изучения языка.

**Ключевые слова:** навыки, социально-эмоциональное развитие, обучение, общение, различные культуры.

**Giriş/Introduction**

Sosial-emosional bacarıqlar xarici dillərin öyrənilməsində öyrənmə tərzini tanımağa, öyrənməyə mane olan narahatlıqları müəyyən etməyə və real hədəflər təyin etməyə kömək edir. Bu bacarıqlara yiyələnmə doğma dildə danışanlarla effektiv ünsiyyət qurmaq və yanlış anlaşılmaların öhdəsindən gəlməyə nə qədər imkan verirsə, fərqli dillərdə danışan, mədəniyyətlərə sahib insanlarla daha tez ünsiyyət qurmağa kömək edir. Xarici dil müəllimləri, həmçinin öyrənənlər dil mübadiləsi qurmağa, sinifdə əməkdaşlıq etməyə və tədris resurslarından istifadə etmək üçün sosial şəbəkə yaratmağa sosial-emosional bacarıqların vasitəsilə daha tez nail olurlar.

Müəllimin effektiv öyrənmə strategiyaları seçmək, resurslardan səmərəli istifadə etmək və dilin öyrənilməsində məsuliyyəti öz üzərinə götürməyi sosial bacarıqlar sayəsində reallaşır. Xarici dilin öyrənilməsində sosial-emosional bacarıqların inkişafı tələbələrə təkcə dildə deyil, həm də öz bacarıqlarına inamlı olmaqda, ünsiyyət üçün daha açıq olmaqda və yeni mədəniyyətlərə uyğunlaşmaqda yardım edir. Sosial-emosional bacarıqlar dil öyrənməni daha təsirli, az stressli və daha əhatəli bir təcrübəyə çevirən katalizator rolunu oynayır.

**Sosial-emosional bacarıqların əsas komponentləri və dialoqqurmaya təsiri.** Xarici dillərin öyrənilməsində sosial-emosional bacarıqlar müxtəlif sahələrdə özünü göstərir. Bura özünüidrak, özünü idarəetmə, sosial idrak, münasibətqurma bacarıqları və məsuliyyətli qərar qəbuletmə daxildir. Özünüidrak öz zəif və güclü tərəflərini bilmək, dəyərlərini anlamaqdır. Öyrənən bu sahədə öyrənmə tərzini tanımağa, öyrənməyə mane olan narahatlıqları müəyyən etməyə və real hədəflər təyin etməyə imkan qazanır.

Qarşı tərəfin dilini anlamadığı zaman şagird həyəcanlanır, stresslə qarşılaşır, motivasiyanı qorumağa çalışır. Özünüidarəetmə öyrənmə nizamını saxlamaq, ünsiyyət zamanı səhv etməkdən qorxmamaq, usanmadan öyrənməyi davam etdirməyə kömək edir. Fərqli mədəniyyətlərə sahib insanlarla ünsiyyət, qarşı tərəfin emosiyalarını anlamaq və

empati qurmaq, mədəni fərqləri başa düşmək və yanlış anlaşılmanın öhdəsindən gəlmək sosial-emosional bacarıqların idraki aspektində baş verir.

Çox vaxt şagirdlər, xüsusilə ünsiyyətcil, kreativ fikirləri ilə fərqlənənlər qarşı tərəfin dilinə tələb olunan səviyyədə malik olmasa da, tərəf müqabili ilə sağlam münasibət qura bilir, yoldaşları ilə əməkdaşlıq edir, müxtəlif tədris resurslarından istifadə edərək münasibət qurmağa cəhd edir. Bu, sosial-emosioanal bacarıqların münasibətqurma komponenti kimi üstün cəhətidir. Öyrənmədə daha effektiv strategiyaların məsuliyyəti öz üzərinə götürmək isə öyrənənin məsuliyyətli qərarqəbuletmə bacarığını təqdim edir [ətraflı bax: Bayramova, 2022:25].

**Fərqli mədəniyyətlərdən olan insanlar arasında ünsiyyət.** Mədəniyyətlərarası ünsiyyət ünsiyyətin bir növü olub "elektron mədəniyyət vasitələri ilə önə çıxarılan, əvvəlki mədəniyyətlər də daxil olmaqla insanları bir-birinə yaxınlaşdıran"[ https://az.wikipedia.org/wiki/M%C9%], kommunikasiyanı genişləndirən bir ünsiyyətdir.

Fərqli mədəniyyətlərdən olan insanlar arasında ünsiyyət ilk dəfə 1950-ci ildə amerikalı antropoloq Eduard Poll tərəfindən hazırlanmış proqram çərçivsində tətbiq edilməyə başlanmışdır. Proqram ABŞ Dövlət Departamentinin göstərişi ilə xaricdəki amerikalı diplomatlar və iş adamlarının bir-birilə ünsiyyət qurması məqsədilə hazırlanmışdı. İlk vaxtlar fərqli mədəniyyətlərdən olan insanların dialoqa girməsi üçün sabirt bi sistemi olmayan anlayışlardan istifadə edilirdi. Get-gedə mədəniyyətlərarası münasibətlər güclənir, insanlar daha qlobal məsələlər ətrafında birləşir, problem situasiyalarla qazrşılaşır. Bu gün həyatın müxtəlif sahələrində mədəniyyətlər- arası ünsiyyət genişllənir.

Fərqli mədəniyyətlərdən olan insanlarla dialoqqurmada sosial-emosioanl bacarıqların inkişafı təkcə dildə deyil, həm də öz potensialını başa düşməyə, bacarıqlarına inamlı olmaqda, ünsiyyətə açıq olmaqda, yeni keyfiyyətlərə alışmaqda yardım edir. Sosial-emosional bacarıqlar bu mənada ünsiyyəti daha çevik, daha təsirli, əhatəli və tez qurmağa xidmət edir. Misal olaraq, müxtəlif mədəniyyətlərdən olan insanlar arasında salamlaşmanı götürək. Dünyanın müxtəlif xalqlari bir-birilə ilk ünsiyyəti salamlaşma ilə qururlar; əl sıxmaq salamlaşmanın ən geniş yayılmış formasıdır, dövlət rəsmiləri, sadə insanlar bir-birilə adətən əl sıxmaqla görüşürlər, lakin qadınlar bu ünsiyyətdən kənardır, adətə görə, qazdın əl ilə görüşmək istədikdə özü birincin əl uzatmalıdır. İtalyanlar salamlaşarkən heç bir söz demədən başlarındakı şlyapanı çıxarıb təzim edir, hindlilər iki əlllərini birləşdirib sinələrinə sıxır, bir çox Avropa ölkələrində qucaqlaşıb öpüşürlər və bu, müxtəlif mədəniyyətlərdən olan insanlar üçün ümumi ünsiyyətəqoşulma sayılır.

**Nəticə/Conclusion**

Fərqli mədəniyyətlərdən olan insanlarla dialoqqurma, ünsiyyətə qoşulmanın əsasını təşkil edən sosial-emosional bacarıqlar eyni zamanda müxtəlif çətinliklərin öhdəsindən gələ bilmək bacarığıdır. Bu bacarıqların əsası isə məktəb dövründə qoyulur. Sosial qaydaları başa düşməyən uşaqlar sosial əlaqəyə girməkdə çətinlik çəkirlər, ona

görə də onları elə bir sosial mühitə cəlb etmək lazımdır ki, öz aralarında araşdırma apara, bir-birlərini başa düşdüklərini və qəbul edildiklərini hiss etsinlər. Dialoqqurmada sosial bacarıqlar ünsiyyətlə sıx bağlı olub fərqli mədəniyyətlərdən olan insanları birləşdirir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Bayramova, G. (2022). Sosial-emosional öyrənmənin tədrisin təşkilində rolu // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. − cild 89, №4. – 23-27.
2. Грушевицкая Т. Г., Попков В. Д., Садохин А. П. Основы межкультурной коммуникации: Учебник для вузов / Под ред. А.П. Садохина. − М.: ЮНИТИ-ДАНА, 2003. − 175 с.
3. https://az.wikipedia.org/wiki/M%C9%99d%C9%99niyy%C9%99tl%C9%99raras%C4%B1_%C3%BCnsiyy%C9%99t

**Məqalə tarixçəsi**
*Daxil olub* *21.10.2025*
*Qəbul edilib* *06.11.2025*
*Nəşrə tövsiyə edib* *Nazilə Abdullazadə*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*